


**Zikrulla Xudayar**
**Ərdəbil Dərmangahi**
**Rifah xəstəxanasının**
**baş həkimi**


## Mən səni sevirəm, sevməsən də sən

Eşqi – məhəbbəti qanmasam, kiməm?
Elimə - obama yanmasam, kiməm?
Yurdumu bir şərəf sanmasam, kiməm?
Sevilib – sevməyə yaranmışam mən,
Mən səni sevirəm, sevməsən də sən.

Ehtiram, etibar sənə bağlıdır,
Cəbrlə ixtiyar sənə bağlıdır,
Gözəllik, hər nə var, sənə bağlıdır.
Hürisən, pərisən, mələksən, nəsən,
Mən səni sevirəm, sevməsən də sən.

Sənsən bu həyatda tükənməz payım,
Dəhşətli zamanda harayım, hayım,
Mən səni sevməsəm qurulsun vayım.
İnsandan insana olmasın düşmən,
Mən səni sevirəm, sevməsən də sən.

Uzunsan, gödəksən, qarasan, ağsan,
Yoxsulsan, varlısan, dərəsən, dağsan,
Bacısan, qardaşsan, ya da ki, yadsan.
Ərəbsən, əcəmsən, türk, əmən, jermən,
Mən səni sevirəm, sevməsən də sən.

İnsanlıq əsridir, başqası köynək,
Baxımlar gözündə cürbəcür eynək,
Kaş belə olmaya, olsa da neynək.
Köynəkə, eynəkə baxmasın, əhsən,
Mən səni sevirəm, sevməsən də sən.

Dağların zirvəsi olmaya qarsız,
Çayları çəmənsiz, bağları barsız,
Mənim arzu quşum, dolanma yarsız.
Könüldə yuva sal, gözlərə görsən,
Mən səni sevirəm, sevməsən də sən.

Damarımda qansan, canımda ürək,
Sən mənə kürəksən, sən mənə çörək,
Qəbirdə sür-sümük mənə nə gərək.
Sən mənə yasəmən, sən mənə süsən,
Mən səni sevirəm, sevməsən də sən.

Ömür uzunsa da, su kimi axır,
Əcəl qəfil itdir, kənardan baxır,
Geci-tezi vardır, tutacaq axır.
Həkim, ayıl-ayıl, balaca tərpən,
Mən səni sevirəm, sevməsən də sən.

## Qala

Baxma qalalara, köhnə divardır,
Dağların başları əlində zardır,
Qartal yuvasıdır, igid yatağı,
Hər elin özünə igidi vardır.

Tarixin unudan itər dünyada,
Bir itən it kimi qoşular yada,
İnsanın varlığı elə bağlıdır,
Elin gözdən atan, çatmaz bir zada.

Babəkin qalası əbəd qalacaq,
Düşmənin canına alov salacaq,
Elə san, qartaldır, zirvədən baxır,
Əfi ilanları cəngə salacaq.

Şəfalı günəşdir, zirvədə şaxır,
Soyuq könüllərə istisin yaxır,
Dayan, xatirələr qalası, dayan,
Elin igidlərin tanıyar axı.

Qeyrət bayrağıdır dağın başında,
Qalacaq bu daşlar üzük qaşında,
Divanə, gözlüyün gözündən götür,
Şərafət oxunur hər bir daşında.

Əcnəbi elimin evin yıxanda,
Ulu igidlərin qanı axanda,
Torpağa qəhrəman qanı yayıldı,
Babəkin Bağdadda canı çıxanda.

Həkim el igidin qafər adlamaz,
Xatırlar hər zaman qılanda namaz,
Qəhrəman yurdudur Azərbaycanım,
Babəklər, Nəbilər, Koroğlu, Eyvaz.

## Sevirəm

Təbiətə, dağa, daşa aşığam,
Yerə, göyə başdan-başa aşığam,
Ala gözə, qələm qaşa aşığam,
Qərənfili, yasəməni sevirəm.

Yol yoldaşım, qələmdaşım, qardaşım,
Arxam, elim, yaman gündə sirdaşım,
Qızıl gülüm, tər bənövşə xaşxaşım,
Bu həyatda təkcə səni sevirəm.

Yaranmışam sənə yoldaş olmağa,
Yollarından tikanları yolmağa,
Çiçək açıb, ətir saçıb solmağa,
Ay – Günəşi, duman – çəni sevirəm.

Yaranmışam gülə-gülə qalmağa,
Oxumağa, oynamağa, çalmağa,
Min həvəslə qol boynuna salmağa,
Kürdü, türkü, tür kəməni sevirəm.

Nədən sorum, nə məzhəbdə dinləşən,
Amerikada, Urfada, Çində sən,
Mənə gərək sevməlisən, zindəsən,
Qeyri-qansız hər vətəni sevirəm.

## Məhəbbət yolçusuyam

Mən aşığam Vətəndaşa,
Çoban ola, ya da paşa,
Aşıq olsun, sən də yaşa,
Bütün eldə başdan – başa,
Məhbbətin yolçusuyam!

Sarı, qara, qırmızı, ağ,
Qoca, cavan, böyük, uşaq,
Qada, bəla sizdən iraq,
Konüllərdə varaq-varaq,
Məhəbbətin yolçusuyam!

Hər qədəmdə, hər nəfəsdə,
Hər boğazdan çıxan səsdə,
Məhəbbətsiz kəsə-kəsdə,
Bollu-bollu esemesde,
Məhəbbətin yolçusuyam!

## Bayatılar

Yaşamağa var gərək,
Yol uzunu yar gərək,
Yaxşı sözü eşitmək,
Yaman sözə kar gərək.

Kimsə olmaz mil kimi,
Qılınc kəsməz dil kimi,
Dilin bilsən yıxarsan,
Düşmən ola fil kimi.

**2019**

Kredo 2019.- 18 dekabr.- S.15.